# Diplomatlar Qarabağ və Şərqi Zəngəzurda reallıqlara şahidlik etdilər

Azərbaycanda akkreditə olunmuş diplomatik korpus nümayəndələrinin işğaldan azad olunmuş bölgələrə səfəri ölkəmizin milli maraqlarının ehtiva olunduğu geosiyasi hadisədir. Ayrı-ayrı beynəlxalq subyektlərin rəsmi təmsilçisi olan diplomatlar Qarabağ və Şərqi Zəngəzurun məruz qaldığı transformasiyanı öz gözləri ilə görərək reallıqlarla bağlı özləri təəssürat formalaşdıra bilir.



30 illik işğal və təcavüz dövründə Ermənistanın dövlət siyasəti çərçivəsində qəsdən törədilmiş ekosid, urbisid və kultursid cinayətləri nəticəsində işğal zonasında daş daş üstündə qalmamışdı. Azərbaycan Ordusu İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığında həmin torpaqları azad edərkən Prezidentin də ifadə etdiyi kimi, bayraq sancmağa belə salamat bir tikili tapılmamışdı.

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, ərazilər işğaldan azad olunduqdan dərhal sonra Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə birlikdə Qarabağ və Şərqi Zəngəzura səfər edən Prezident İlham Əliyev kameralar qarşısında erməni vəhşiliklərini ifşa etdi. Dövlət başçısı bu bölgədən sanki vəhşi qəbilələrin keçdiyini bildirmişdi. Elə həmin dövrlərdən etibarən diplomatik korpusun ayrı-ayrı nümayəndələrinin işğaldan azad olunmuş bölgələrə səfərləri təşkil olunub, amansızlıq və vəhşiliklə törədilmiş bu cinayətlər dünya ictimaiyyətinə çatdırılıb. "Azərbaycan işğal və təcavüzə son qoyduqdan sonra Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsi və yenidən qurulması, o cümlədən ölkənin iqtisadi fəaliyyətinə reinteqrasiya olunması istiqamətində ardıcıl, planlı və qətiyyətli fəaliyyət göstərilib, işğala son qoyulmasından cəmi bir neçə həftə sonra artıq ilk infrastruktur layihələrinin icrasına və istehsal müəssisələrinin inşasına başlanılıb, habelə cəmi 8 ay ərzində Füzuli Beynəlxalq Hava Limanı rəsmən açılaraq ilk qonağını qəbul edib. Üstəlik, Azərbaycan Respublikası ərazicə Livan dövləti ölçüsündə bir coğrafiyada quruculuq-bərpa prosesini təkbaşına, öz gücü hesabına həyata keçirir və işğaldan azad olunmuş demək olar ki, bütün rayonlara bu və ya digər formada mərhələli şəkildə sakinlərin geri dönüşünə start verilib", - deyə o əlavə edib.

Deputat vurğulayıb ki, Azərbaycanda akkreditə olunmuş diplomatik korpus nümayəndələrinin Qarabağ və Şərqi Zəngəzura səfəri bu mənada, əslində, diplomatlara kifayət qədər aydın mənzərə verir. Belə ki, diplomatlar bir tərəfdə uçurulmuş, dağıdılmış və XXI əsrin baxışları ilə birmənalı şəkildə üst-üstə düşməyən vəhşilik tendensiyasına, digər tərəfdə isə qısa müddət ərzində müasir rifah standartlarını tam şəkildə əhatələyən insan haqlarına hörmət, etibarlı və təhlükəsiz həyat şəraiti vəd edən quruculuq və bərpa işlərinə şahidlik edirlər. Daha sadə dillə desək, diplomatların qarşısında kimin dağıdıcı, pozucu, işğal və təcavüzkar mahiyyətə malik olduğu, kimin isə bu torpaqların əsl sahibi kimi qurucu, yaradıcı mövqedən çıxış etdiyi mübahisə doğurmur. Sirr deyil ki, Vətən müharibəsində və antiterror tədbirlərinin gedişində bir çox dövlət beynəlxalq hüququn ümumtanınmış normalarında əksini tapan prinsipləri bir kənara qoyaraq ikili standartlara söykənərək Azərbaycan əleyhinə hüquqa və ədalətə zidd mövqedən çıxış edərək böhtan və yalan kampaniyasının mühüm subyektləri kimi çıxış etdi. Lakin Azərbaycan hərbi-siyasi qələbələri və regionda əsas güc mərkəzinə çevrilməsi ilə bu bölgədə maraqları olan həmin dövlətləri bir daha düşünməyə vadar etdi. Onlar Cənubi Qafqazda maraqlarını yalnız Azərbaycanla bərabərhüquqlu və sağlam əməllərə əsaslanan əməkdaşlıq mühiti çərçivəsində təmin edə biləcəklərini anladılar. Əlbəttə, bu, qütblərarası ziddiyyətin dərinləşdiyi və ayırıcı xətlərin daha kəskin formada ortaya çıxdığı bir dönəmdə Azərbaycan Prezidentinin həyata keçirdiyi çoxvektorlu xarici siyasət kursunun birmənalı uğurudur. Nəticə etibarilə bir zamanlar Azərbaycanın yaratdığı geosiyasi reallığı tanımaq istəməyən və ölkəmizin qələbələrinin nəticələri ilə barışmayacağını bəyan edən beynəlxalq subyektlərin nümayəndələrinin artıq Qarabağ və Şərqi Zəngəzura səfər etməsi özlərinin ənənəvi və beynəlxalq hüquqazidd təcavüzkar mahiyyəti, siyasəti dəstəkləyən siyasətlərindən əl çəkdiyini və Azərbaycanın mövqeyini dolayısı ilə beynəlxalq hüququn aliliyini tanımağa məcbur qaldıqlarını göstərir.

B.Məhərrəmov bildirib ki, diplomatların Qarabağ və Şərqi Zəngəzur səfərində Fransa səfirinin də iştirakı bu mənada xüsusi qeyd edilməlidir: "Azərbaycan bütün dünya dövlətləri ilə, o cümlədən Fransa ilə də sülh və əməkdaşlıq şəraitində yaşamaqda, bu istiqamətdə qarşılıqlı faydalı fəaliyyətdə hər zaman maraqlıdır. Bu günə qədər Paris və Bakı arasında münasibətlərin gərginləşməsi heç bir halda Azərbaycandan qaynaqlanmayıb. İndiki məqamda Fransa səfirinin işğaldan azad olunmuş ərazilərinə digər diplomatlarla birgə səfəri bu ölkənin Azərbaycanın yaratdığı reallıqları qəbul etməsi və münasibətlərimizdə Parisdən qaynaqlanan gərginliyin aradan qaldırılması istiqamətində mühüm bir addım sayıla bilər. Azərbaycan bizimlə tərəfdaşlıq səviyyəsindən asılı olmayaraq, heç bir dövlətdən lehimizə beynəlxalq hüquqa və onun ümumtanınmış normalarında əksini tapan prinsiplərə zidd tələb və istəklərlə çıxış etməmişdir. Bizim beynəlxalq hüquq subyektlərindən yeganə istəyimiz beynəlxalq hüququn aliliyinə, o cümlədən Azərbaycanın ərazi bütövlüyü və sərhəd toxunulmazlığına hörmətlə yanaşmaqla, sərhədlərimiz daxilində ölkəmizin yurisdiksiyasında olan məsələlərə müdaxilə cəhdlərində bulunmamaqdır. Belə olan halda əməkdaşlıq mühiti dərinləşə, bundan qarşılıqlı olaraq həm Azərbaycan, həm müvafiq dövlət, bütövlükdə Cənubi Qafqaz faydalana bilər. İrəvanın tərəfdaşları və hamiləri başa düşməlidirlər ki, beynəlxalq hüquqazidd davranışlarla nəinki Ermənistanı müdafiə edə bilməzlər, əksinə, erməni xalqının miflərə əsaslanan ideologiyası və təcavüzkar dövlət siyasəti nəticəsində düşdüyü çıxılmaz vəziyyəti və üzləşdiyi dalan situasiyasını yalnız və yalnız dərinləşdirmiş olurlar".

Deputat vurğulayıb ki, otuz il ərzində Qarabağ və Şərqi Zəngəzura, bütövlükdə bölgəyə özünün təcavüzkar siyasəti ilə bədbəxtlik və fəlakətlər gətirən Ermənistandan fərqli olaraq, Azərbaycanın bu coğrafiyada həyata keçirdiyi bərpa-quruculuq prosesinə, əhalinin öz doğma torpaqlarına ləyaqətli və təhlükəsiz halda qayıtmasına diplomatik korpus nümayəndələrinin birbaşa şahidlik etməsi ötən dövr ərzində Azərbaycana münasibətdə müşahidə olunan ədalətsiz yanaşmanın nəticələrinin aradan qaldırılması və ölkəmizin beynəlxalq hüququn aliliyi adına atdığı addımların düzgün dəyərləndirilməsi adından mühüm hadisədir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.-25 iyun (№ 129).- S.12.